# GÜNƏŞ




12/2016

İNDEKS: 76464

*Mikayıl RZAQULUZADƏ*

## İNSAN ÖMRÜ

Yüz il?!
Çoxdur, yoxsa, az?
Axı insan ömrünü
Günlər, aylar, illərlə
Ölçərək saymaq olmaz.

Bizim müdrik babalar
bunu deməyib əbəs:
"Gün var min ilə dəyər,
il var bir günə dəyməz!"

Zibildə eşələnən
qarğa yüz il nədir ki,
yaşasa da yüz illər,
şimşəklərlə yarışan
qartalın bircə günü
onun yüz ildən artıq
bütün ömrünə dəyər!

Qarğa tək, koramal tək
yüz il yaşamaqdansa,
qartal tək bir gün yaşa!

Qarğa-qartal bir yana,
İnsan həyatı gərək
layiq ola insana:
neçə-neçə qəhrəman,
neçə-neçə sənətkar
kimi öz əcəliylə,
kimi cəllad əliylə,
amma vaxtsız-zamansız
getdisə də dünyadan,
hələ də yüz illərlə
yaşayacaqlar, inan!

Yaşamaq yaratmaqdır:
torpağa toxum əkmək,
körpü salmaq, ev tikmək,
diriltmək yaşamaqdır!

Bunlarsız boş-boşuna
yüz il
Ya çox, ya da az,
yox ikən var görünmək,
mövcud olmaq, sürünmək
insan ömrü sayılmaz!

İnsan ömrü
ən uzun ömürdür bu dün-
yada:
keçsə də min-min illər,
yox olsa da dünyadan
neçə-neçə nəsillər.
Kolizey dağılsa da,
Dante həmişə sağdır.
Qocaman Olimp bir gün
yerlə-yeksan olsa da,
Homer yaşayacaqdır.

**1975.**

## XOŞ GÖRDÜK

Xoş gördük!
Ey
yetmiş il bundan əvvəl
ilk dəfə görüşdüyüm
ilk bahar!

Gün aydın,
Ey yetmiş il bundan əvvəl
gördüyüm yaz günəşi!

Xoş gördük!
Ey mehriban
qoynunda doğulduğum,
hüsnünə vurulduğum,
sevimli, gözəl Bakı!

Gün aydın!
Ey yetmiş il
sevən oğlu olduğum
anacan,
Azərbaycan!
Xoş gördük,
Ey güzgüdən
gözaltı məni güdən
göz vurub gülümsəyən
yetmiş illik sirdaşım,
ağ saçlı cavan oğlan!

Hələ tələsmə, dayan!
Demə ki, gəl dincələk,
daha çatdıq mənzilə!
Yox, yox!
Tələsmə hələ,
hələ doymayıb ürək
gözələ-gözəlliyə
yaxşıya məhəbbətdən!
Çirkinə, çirkinliyə,
yamanlığa nifrətdən!

Nə qədər ki, bunlar var,
ey məni oğrun-oğrun
güzgüdən güdən oğlan,
durmağı, dincəlməyi
hələ yadından çıxar,
hələ mənzilə çox var!

**1975.**